# “Zərifə Əliyeva ömrünün işığı”nda



**Dünən Nizami Kino Mərkəzində Nəsimi Rayon İcra Hakimiyyəti Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı ilə birgə görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr olunmuş “Zərifə Əliyeva ömrünün işığı” adlı yubiley mərasimi keçirildi.**

Məclisdə Nəsimi Rayon İcra Hakimiyyətinin, YAP Nəsimi rayon təşkilatının rəhbərliyi, səhiyyə, təhsil müəssisələrinin, rayonun idarə və təşkilatların rəhbərləri, şəhid ailələri, müharibə əlilləri, QHT rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri və rayon gəncləri iştirak etdilər. Əvvəlcə Zərifə xanım Əliyevanın həyat və yaradıcılığına aid “Bəyaz işığın Zərifəsi” adlı film nümayiş etdirildi.

Toplantı giriş sözü ilə Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov açaraq bildirdi ki, çoxşaxəli, gərgin fəaliyyətinə baxmayaraq Zərifə xanım Əliyeva həmişə qadın incəliyini və zərifliyini qoruyub saxlaya bilib. O, özünün parlaq şəxsiyyətində əsl Azərbaycan xanımının keyfiyyətlərini təcəssüm etdirib. Zərifə xanım qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı, yüksək mənəviyyat sahibi olub.

Ümummilli lider Heydər Əliyev həyatda qazandığı böyük uğurlarda Zərifə xanımın diqqət və qayğısının mühüm əhəmiyyətini yüksək qiymətləndirirdi. Bu, iki parlaq şəxsiyyətin ailə həyatı nümunə idi. Zərifə xanım görkəmli alim olmaqla yanaşı, həm də fəal ictimai xadim, qayğıkeş ana olmuşdur. Onun fəxri adları, elmi dərəcələri, mükafatları çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Ancaq bunlar sırasında ən şərəflisi Ana adıdır. Ulu öndərin əsasını qoyduğu quruculuq işləri və Zərifə xanımın çoxşaxəli hümanist missiyası bu gün möhtərəm Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir.

1 nömrəli Bakı Tibb Kollecinin direktoru, tibb üzrə fəlsəfə doktoru Nailə Əliyeva çıxışında qeyd etdi ki, Zərifə xanım Əliyeva təkcə çoxşaxəli elmi tədqiqat işləri aparmaqla kifayətlənməyib. O, yüksək ixtisaslı gənc alim kadrların yetişdirilməsinə və oftalmoloq-həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirib.

Akademik Zərifə xanım Əliyevanın zəngin irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələrindəndir. Bütün bu uğurların kökündə isə Zərifə xanımın aldığı həyat dərsi dayanırdı.

Sonra Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru Azər Süleymanov Zərifə Əliyevanın həyat və fəaliyyətindən danışaraq bildirdi ki, görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi- tədqiqat işlərinin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafat olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb.

Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi ilə əlaqədar 50 nəfərə yaxın gözdən əlil, fiziki qüsurlu məktəbliyə optik göz eynəkləri təqdim edildi.

Tədbir bədii hissə ilə davam etdirildi.

***Əliqismət BƏDƏLOV, “Xalq qəzeti”***